Martın 29-da elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

İclasda Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun məsləhətçisi vəzifəsinə namizəd İldırım Zeynalovun müsahibə nəticəsi ilə əlaqədar şikayətinə baxılıb. Müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntü əsasında şikayət araşdırılıb, şikayətin təmin edilməsi barədə şura tərəfindən qərar qəbul olunub.